

*Vaqif Əliyev,*
*Azərbaycan-İsrail*
*Yazıçılar Birliyinin üzvü*

## GÖZLƏRİMƏ NECƏ DEYİM BAXMASIN

**İstedadlı şairə Gülayə Könülün "Gözlərinə denən mənə baxmasın" şeirinə cavab**

Ay gözəl qız, sözlərimdən incimə,
O gözlərin qoymur baxım heç kimə.
Ehtiyac yox bu baxışda him-cimə,
Gözlərimə necə deyim baxmasın?

Vurğun oldum sənin xumar gözünə,
Özün məni cəlb etmisən özünə.
Yanmaq xoşdur atəşinə, közünə,
Gözlərimə necə deyim baxmasın?

Bunu sənin dilin deyir, göz demir,
Mən duyuram, dil dediyin düz demir.
Dil desə də gülümsəyən üz demir,
Gözlərimə necə deyim baxmasın?

Bu könlümün ixtiyarı səndədir,
Qarşındakı ovsunlanmış bəndədir.
Nə deyirsən, səncə günah məndədir?
Gözlərimə necə deyim baxmasın?

Mən çəkərəm gözəllərin bəlasın,
Lap öldürsün, bu könlümü talasın.
Hardan tapım səntək gözəl əlasın?
Gözlərimə necə deyim baxmasın?

Qismət olmur hər kəs də bu naxışa,
Vurulmuşam sevgi dolu baxışa.
Baxışlar da başlayıbsa yarışa,
Gözlərimə necə deyim baxmasın?

Günəş olub mənə verdin odunu,
Gözlər açır qəlbdə hissin kodunu.
Tanrı salıb qəsdən burdan yolunu
Gözlərimə necə deyim baxmasın?

Çoxdan səni gözləyirdim, ay pəri,
Adın olub bu dilimin əzbəri.
Nə yaxşı ki, özün baxdın sən bəri,
Gözlərimə necə deyim baxmasın?

Bu bəxtimdə belə xoş an olmayıb,
Canım qədər sevdiyim can olmayıb.
Gözlərintək şəfəqli dan olmayıb,
Gözlərimə necə deyim baxmasın?

Tale yazan yazılara pozu yox,
Aydınlıqdı, başqa səmtə yozu yox.
Aşıq könlüm, söz deməyə sazı yox,
Gözlərimə necə deyim baxmasın?

Gözlər baxıb bir-birini yeyirsə,
Çox mətləblər anladırsa, deyirsə.
Dildə gözü tərif edib öyürsə,
Gözlərimə necə deyim baxmasın?

Sahilində dayanmışıq Xəzərin
Sənin məndən çəkilməyib nəzərin.
Bir sifəti, bir üzüyük biz zərin
Gözlərimə necə deyim baxmasın?

Mahir ovçu quşu vurar gözündən,
Əsil ocaq yadda qalar közündən,
Gəlmişəmsə mən cürətə sözündən
Gözlərimə necə deyim baxmasın?

Heyranamsa bir gözəl ağbənizə,
Özün söylə, necə baxım dənizə?
Baxışlarım dikilibdi tək sizə,
Gözlərimə necə deyim baxmasın?

Bu dünya da gözümdə birtəhərdir,
Gecəm gündüz, axşamım da səhərdir.
Bu sevgidə son addımın zəfərdir,
Gözlərimə necə deyim baxmasın?
Axar suya necə deyim axmasın?

## BİR DÖYÜNSÜN

Bu gün gəlin bənzər aya, ulduza,
Toy paltarı qismət olsun hər qıza.
Fərəhliyik dil də sığmır ağıza,
Bəy-gəlinə xoşbəxt olsun deyək biz,
Bir döyünsün sevgi dolu qəlbiniz.

Bu məclisdə doğmalardı, yoxdu yad,
Qohum-qardaş,hamı xoşbəxt,hamı şad.
Oynayırlar çağrılmadan adbaad,
Bəy-gəlinə xoşbəxt olsun deyək biz,
Bir döyünsün sevgi dolu qəlbiniz.

Bir adətdir əzəl gündən, binadan,
Qızlar alar xeyir-dua atadan.
Getdiyin ev, ay qız, olsun abadan,
Bəy-gəlinə xoşbəxt olsun deyək biz,
Bir döyünsün sevgi dolu qəlbiniz.

Tanrı sizə bu həyatda yar olsun,
Ömür boyu ilqarınız var olsun.
Sözlərimiz məclis boyu car olsun,
Bəy-gəlinə xoşbəxt olsun deyək biz,
Bir döyünsün sevgi dolu qəlbiniz.

Bülbül qonar gül qoxulu budağa,
Ana sözü sırğa olar qulağa.
Duruluqda bənzəyirsən bulağa.
Bəy-gəlinə xoşbəxt olsun deyək biz,
Bir döyünsün sevgi dolu qəlbiniz.

Ay ürəyim, bu sevinclə gəl döyün,
Yuva quran övladlarla sən öyün.
Subaylara arzulayaq toy-düyün,
Bəy-gəlinə xoşbəxt olsun deyək biz,
Bir döyünsün sevgi dolu qəlbiniz.

## BACILAR

Məhləmizin iki gözəl qızı var,
Onlar ekiz; necə gözəl bacıdır.
Dünya mənim bu başıma olub dar,
Biri şirin, biri dili acıdır.

Biri bilir mənim meylim onadır,
Belə getsə bütün səylər fənadır.
Nə olsun ki, ikisi də sonadır,
Biri çiçək, biri cana ağrıdır.

Aman vermir yaxınlaşıb deyəm söz,
Hara getsə bacısına qoyur göz.
Gəl bu qızın hikkəsinə indi döz!
Biri şəfa, biri cana ağrıdır.

Qəzəblənib hər sözümdən alışır,
Bacısının əvəzinə danışır.
Susmaq bilmir, bu sevdaya qarışır,
Elə bil ki, küpəgirən qarıdır.

Söz deyəndə tez sözümü o kəsir,
Hər nə desəm hirslənibən o, əsir.
Məndən niyə xoşu gəlmir, bu nə sirr?
Biri düşmən, biri mənə sarıdır.

Hara getsə onlar qoşa, cüt gəzir,
Tərs baxışı bu qəlbimi çox əzir.
Bacısına o darğadır, ya vəzir?
Bədbəxt o kəs belə bir qız yarıdır.

Çox qorxuram sala məni o şərə,
Kaş nə ola rast gələ bir nəfərə.
Onu sevib çıxıb gedə tez ərə,
Aramızda o bir səddir, barıdır.

Ədalət 2019.- 6 sentyabr.- S.8.